**"Optimal Elektronika" MMC-nin**

**2021-ci il üzrə**

**İDARƏETMƏ HESABATI**

1. **Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi:**

   Emitentin tam adı: "Optimal Elektronika" Məhdud Məsuliyyətli Cəmiyyəti

   Qısaldılmış adı: "Optimal Elektronika" MMC

   VÖEN: 1303450301

   Dövlət qeydiyyatının tarixi: 27.11.2013

   Dövlət qeydiyyatının nömrəsi: 1303450301

2. **Emitentin hüquqi ünvanı və olduğu yer:**
   Azərbaycan Respublikası, AZ 1007 Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq pr-ti 120

3. **Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları:**
   Emitentin adında dəyişiklk olmamışdır.

4. **Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar:**
   Yeni açılan filiallar:
   Ağdam filialı
   Lerik filialı
   Bağlanan filiallar:
   28 May-2 filialı
   28 May-3 filialı
   Göyçay mebel filialı
   Şabran mebel filialı

5. **Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında**

**məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti:**

Emitentin hesabat dövrü ərzində törəmə cəmiyyəti yaradılmamış və ləğv edilməmişdir.

6. **Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı:**
Emitent hər hansı şirkətlər qrupuna daxil deyil.

7. **Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri:**
İXTİSASLAŞDIRILMIŞ MAĞAZALARDA MEBELLƏRİN, İŞIQLANDIRICI AVADANLIQLARIN VƏ DİGƏR MƏİŞƏT CİHAZLARININ PƏRAKƏNDƏ SATIŞI
8. **Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri:**

Lisenziya və icazə tələb olunan fəaliyyətlə məşğul olmur.

9. **Emitentin təklif etdiyi məhsullar və xidmətlər:**
Elektronika malları, servis

10. **Emitentin işçilərinin sayı və onun rüblük dinamikası**
31.03.2021 tarixdə - 1152
30.06.2021 tarixdə - 1154
30.09.2021 tarixdə - 1116
31.12.2021 tarixdə - 1096

11. **Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı:**

**İcra orqanı: Direktor**

| S/s | Soyadı, adı, atasının adı | Vəzifəsi |
|---|---|---|
| 1. | Əsgərov Əhəd Tofiq oğlu | Direktor |

12. **Emitentin fiziki və hüquqi şəxs olan payçılarının ayrı-ayılıqda sayı:**

| S/s | Soyadı, adı, atasının adı | Pay sayı | Nizamnamə Kapitalında faiz nisbəti |
|---|---|---|---|
| 1. | | | |

| | | | |
|---|---|---|---|
| | Əsgərov Əhəd Tofiq oğlu | 2 | 100 % |

**13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrıayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı;**

| S/s | Soyadı, adı, atasının adı | Payların sayı | Nizamnamə Kapitalında faiz nisbəti |
|---|---|---|---|
| 1. | Əsgərov Əhəd Tofiq oğlu | 2 | 100 % |

**14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı):**
Nizamnamə kapitalında hüquqi şəxslərin payı yoxdur.

**15. Emitentin payçılarının hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat:**

1) Ünvan dəyişikliyi ilə bağlı Nizamnaməyə dəyişikliyin təsdiq edilməsi -12.04.2021;

2) Aidiyyatı şəxslərlə əqd bağlanmasının təsdiq edilməsi – 19.04.2021 il;

3) İstiqraz emissiyasının həyata keçirilməsi barədə - 01.10.2021-ci il;

4) Nisyə alqı-satqı müqavilələri əsasında tələb hüququnun satılması barədə-09.12.2021-ci il;

5) Nizamnamə kapitalının artırılması - 15.12.2021-ci il.

**16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir): -**

| investisiya qiymətli kağızın növü və forması: | investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat | investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri | investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri | faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə | investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond |
|---|---|---|---|---|---|

| | | | | | |
|---|---|---|---|---|---|
| | nömrəsi və qeydiyyat tarixi | | | gəlirliyin illik faiz dərəcəsi | birjasının adı və olduğu yer |
| istiqraz | AZ2002023599 | 2500 ədəd hər biri 1000 AZN olmaqla | 2500000 | 12% | Bakı Fond Birjası |
| istiqraz | AZ2001023590 | 2500 ədəd hər biri 1000 AZN olmaqla | 2500000 | 12% | Bakı Fond Birjası |

**17. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:**
yoxdu

**18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:**

| **Aidiyyati şəxs** | **Əməliyyatın xarakteri** | **Tarix** | **Məbləğ (AZN)** | **Təşkilatla əlaqəsi** |
|---|---|---|---|---|
| Əsgərov Əhəd | Təsisçi borcu | | 2849500 | Təsisçi |
| Optimal Finance BOKT MMC | Faktorinq | 20.04.2021 | 416364 | Optimal Finance BOKT MMC-nin direktoru Əhəd Əsgərov Optimal Elektronika MMC-nin təsisçisi və direktorudur |
| Stentor MMC | investisiya | 01.04.2021 | 9000000 | Stentor MMC-nin direktoru və təsisçisi Əhəd Əsgərov Optimal Elektronika MMC-nin |

| | | | | |
|---|---|---|---|---|
| | | | | təsisçisi və direktorudur |

**19. İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi:**
31.05.2022-ci il

**20. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat:**
Emitentin rəsmi saytında: https://optimal.az/

**"Optimal Elektronika" MMC-nin**
**Direktoru Ə.T. Əsgərov**

Azərbaycan Respublikası * Məhdud Məsuliyyətli Cəmiyyəti * OPTİMAL ELEKTRONİKA * Limited Liability Company * Azerbaijan Republic

**"Optimal Elektronika" MMC-nin**
**Baş Mühasibi Arif Hacızadə**

“ OPTİMAL ELEKTRONİKA ”

MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**31 Dekabr 2021-ci il tarixinə**

**MALİYYƏ HESABATLARI VƏ**

**MÜSTƏQİL AUDİTOR RƏYİ**

**2022**

**Mündəricat**

**Rəhbərliyin məsuliyyəti haqqında hesabat**

**Müstəqil auditorun hesabatı**

**Maliyyə vəziyyəti haqqında hesabat**

**Məcmu gəlirlər haqqında hesabat**

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

**Kapitalda dəyişikliklər haqqında hesabat**

**Maliyyə hesabatları üzrə qeydlər**

**Maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi üzrə rəhbərliyin məsuliyyətininbəyanı**

**31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə**

Müstəqil auditor hesabatında şərh edilən müstəqil auditorun məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat, "Optimal Elektronika" Məhdud Məsuliyyətli Cəmiyyətinin ("Cəmiyyət") maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorun məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik Cəmiyyətin 31.12.2021-ci il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişikliklər hesabatını düzgün əks etdirən və Beynəlxalq Maliyyə Hesabatları Standartlarına ("BMHS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatları hazırlanması zamanı rəhbərlik aşağıdakılar üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- BMHS-a uyğunluğun bəyan edilməsi və əgər bu standartlardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi;
- Əgər yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarının daimililik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının BMHS-a uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirənmühasibat sisteminin təşkil edilməsi;
- Mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması;
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31.12.2021-ci il tarixinə başa çatmış il üzrə maliyyə hesabatlarının bəyan olunması **31.05.2022**-ci il tarixində təsdiq olunmuşdur.

Əsgərov Əhəd Tofiq oğlu

Direktor

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti OPTIMAL ELEKTRONIKA Limited Liability Company Azerbaijan Republic

31 may 2022-ci il

Hacızadə Arif Akif oğlu

Baş mühasib

31 may 2022-ci il

**Müstəqil Auditorun Hesabatı**

"Optimal Elektronika" Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçilərinə:

***Rəy***

Biz "Optimal Elektronika" MMC-nin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixə bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsipləri və digər izahedici məlumatların icmalından ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları 31 dekabr 2021-ci il tarixinə Şirkətin maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

***Rəy üçün əsas***

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standarları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsi"nə ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz Şirkətdən müstəqilik və biz MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz auditor sübutu rəyin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

***Maliyyə hesabatları üçün rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə cavabdeh olan şəxslərin məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatları Beynəlxalq Standartlarına uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin lazım bildiyi daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Cəmiyyəti ləğv etmək və ya əməliyyatları dayandırmaq niyyəti olduğu və ya bunu etSməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Cəmiyyətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi qabiliyyətinin qiymətləndirilməsinə, daim fəaliyyətdə olan müəssisə kimi bağlı məsələlərin (belə məsələlər varsa) açıqlanmasına və mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Cəmiyyətin idarə edilməsinə cavabdeh olan şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

***Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti***

Bizim məqsədimiz ümumiyyətlə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürməklə hazırkı maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

**"SM Audit and Consulting" MMC-nin**

**direktoru-auditoru Məmmədov Səbuhi**

**"31" May 2022-ci il**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət SM AUDİT AND CONSULTİNG Limited Liability Company Azerbaijan Republic

# "OPTİMAL ELEKTRONİKA" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ
## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ

*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Uzunmüddətli aktivlər | | | |
| Torpaq, tikili və avadanlıqlar | 1 | 45,439,346 | 21,541,293 |
| Qeyri-maddi aktivlər | 1 | 633,221 | 284,954 |
| İnvestisiyalar | 2 | 12,744,580 | 1,089,766 |
| Qısamüddətli aktivlər | | | |
| Ehtiyatlar | 1 | 19,327,636 | 23,078,446 |
| Qısamüddətli debitor borcları | 1 | 41,118,721 | 38,843,730 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1 | 888,372 | 6,798,451 |
| Sair qısamüddətli maliyyə aktivləri | 1 | 5,352,000 | 3,572,179 |
| Sair qısamüddətli aktivləri | 7 | 6,606,023 | 1,130,513 |
| | | **132,109,899** | **96,339,332** |
| **CƏMİ AKTİVLƏR** | | | |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 6 | 11,485,360 | 2,884,910.00 |
| Kapital ehtiyatları | | 0 | 0 |
| Yenidənqiymətləndirilmə | | | 3,030,308 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 39,179,150 | 37,245,062 |
| **Cəmi kapital** | | **50,664,510** | **43,160,280** |
| ÖHDƏLİKLƏR | | | |
| Qısamüddətli öhdəliklər | | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəlilər | 8 | | 418,745 |
| Qısamüddətli kreditor borclar | 9 | 14,748,137 | 15,593,616 |
| Sair qısamüddətli öhdəliklər | 10 | 6,420,854 | 14,095,442 |
| Uzunmüddətli öhdəliklər | 10 | 60,276,398 | 23,071,249 |
| **Cəmi öhdəliklər** | | **81,445,389** | **53,179,052** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **132,109,899** | **96,339,332** |

**Rəhbərlik adından:**

OPTIMAL ELEKTRONIKA Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti Limited Liability Company

**Direktor** | **Baş Mühasib**

"__" ________ **2022-ci il** | "31" may **2022-ci il**

**Bakı, Azərbaycan Respublikası** | **Bakı, Azərbaycan Respublikası**

**“OPTİMAL ELEKTRONIKA” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**
**MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2021-Cİ İL TARİXİNƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 20 | 113,430,925 | 106,583,259 |
| İcarədən gəlirlər | 20 | 560,106 | |
| Digər gəlirlər | | 2,472,854 | 1,998,026 |
| **Ümumi əməliyyat gəlirləri** | | **116,463,885** | **108,581,285** |
| **Əməliyyat xərcləri** | **23** | **114,891,667** | **94,118,919** |
| Əməliyyat mənfəət (zərəri) | | **1,572,218** | **14,462,366** |
| Maliyyə gəlirləri | 21 | 845,392 | 0 |
| Maliyyə xərcləri | 25 | | |
| Fövqəladə gəlirləri | 22 | | |
| Ümumi gəlirdən çıxılmayan xərclər | | | |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **2,417,610** | **14,462,366** |
| Mənfəət vergisi xərci | 26 | 483,522 | 1,477,578 |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **1,934,088** | **12,984,788** |
| **Mənfəətdə iştirak payı:** | | | |
| Təsisçilərin payı | | | |

**Rəhbərlik adından:**

**Baş direktor**

“___” ________ **2022-ci il**

**Bakı, Azərbaycan Respublikası**

**Baş Mühasib**

“31” may **2022-ci il**

**Bakı, Azərbaycan Respublikası**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti OPTIMAL ELEKTRONIKA Limited Liability Company Azerbaijan Republic

**"OPTIMAL ELEKTRONİKA" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**
**KAPİTALDA DƏYİŞİKLƏR HESABATI**
**31 DEKABR 2021-Cİ İL TARİXİNƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeyd | Nizamnamə Kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət (zərər) | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **31 dekabr 2019-cu il tarixə qalıq** | | 2.884.910 | 3.030.308 | 24.260.274 | 30.175.492 |
| 2019-ci il üzrə xalis mənfəət (zərər) | | | | | |
| Mülkiyyəçinin kapital qoyluşları | 18 | | | | |
| Yenidən qiymətləndirmə | | | | | |
| **31 dekabr 2020-ci il tarixə qalıq** | | 2.884.910 | 3.030.308 | 37.245.062 | 43.160.280 |
| 2020-ci il üzrə xalis mənfəət (zərər) | | | | | |
| Mülkiyyəçinin kapital qoyluşları | 18 | | | | |
| Yenidən qiymətləndirmə | | | | | |
| **31 dekabr 2021-ci il tarixə qalıq** | | 11.485.360 | 0 | 39,179,150 | 50,664,510 |

**Rəhbərlik adından:**

**Direktor**

"___" ________ **2022-ci il**

**Bakı, Azərbaycan Respublikası**

**Baş Mühasib**

"31" may **2022-ci il**

**Bakı, Azərbaycan Respublikası**

Maliyyə hesabatlarının Şərhlər və qeydləri.

**Giriş**

Hazırkı maliyyə hesabatları 31.12.2021-ci ildə tamamlanan il üzrə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq "Optimal Elektronika" MMC üçün tərtib edilmişdir. Cəmiyyət Azərbaycan Respublikasında təsis edilmişdir və bu ölkədə fəaliyyət göstərir. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış Məhdud Məsuliyyətli Cəmiyyətdir.

"Optimal Elektronika" MMC 27.11.2013-cü il tarixində Bakı şəhəri Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır. Dövlət qeydiyyat № 1303450301 (VÖEN).

"Optimal Elektronika" MMC-i Bakı şəhəri, NƏSİMİ RAYONU, AZADLIQ PR., ev 120 hüquqi ünvanında yerləşir.

"Optimal Elektronika" MMC-nin Nizamnaməsinə görə əsas fəaliyyət sahəsi olaraq İXTİSASLAŞDIRILMIŞ MAĞAZALARDA MEBELLƏRİN, İŞIQLANDIRICI AVADANLIQLARIN VƏ DİGƏR MƏİŞƏT CİHAZLARININ PƏRAKƏNDƏ SATIŞI nəzərdə tutulmuşdur.

31.12.2021-ci il tarixinə Cəmiyyətin nizamnamə kapitalı 11.485.360 manatdır. Təsisçilərin nizamnamə kapitalında payı 100 % ilə Əsgərov Əhəd Tofiq oğluna məxsusdur.

31.12.2021-ci il tarixə Cəmiyyətin işçilərinin sayı 1184 nəfər olmuşdur.

## ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİ

**1. Uçot siyasəti**

**1.1. Maliyyə hesabatlarının hazırlanmasının əsasları**

"Optimal Elektronika" MMC mühasibat uçotunu Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada aparır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunvericiliyi əsasında və BMHS-a uyğun hazırlanmışdır. Bu maliyyə hesabatında aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir.

**1.2. Valyutanın yenidən hesablanması**

Bu müəssisənin yerli valyutası Azərbaycan Respublikasının manatıdır (AZN).Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir.Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnə kursu üzrə yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

Xarici valyuta məzənnələri

Cəmiyyət maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı valyuta məzənnələrindın istifadə etmişdir.

| | | 31.12.2020-ci il | 31.12.2021-ci il |
|---|---|---|---|
| 1 | ABŞ dolları | 1.7000 AZN | 1.7000 AZN |
| 1 | Avro | 2.0890 AZN | 1.9265 AZN |

**1.3. Binalar və avadanlıqlar (əsas vəsaitlər)**

Əsas vəsaitlər elə maddi aktivlərdir ki, mal və xidmətlərin istehsalı və təchizatında istismar edilir, gələcəkdə icarəyə verilmək və ya inzibati məqsədlər üçün istifadə edilir.
Ədalətli dəyər- yaxşı məlumatlandırılmış, razılığa gəlmiş və bir-birindən asılı olmayan tərəflər arasında ticari sövdələşmələrdə aktivin mübadilə edildiyi dəyərdir. Binalar üzrə ədalətli dəyər müstəqil kənar qiymətləndirici tərəfindən vaxtaşırı keçrilən qiymətləndirmə ilə müəyyənləşdirilir.Yenidənqiymətləndirmə tarixinə yığılmış istənilən amortizasiya məbləği activin balans dəyərindən silinir və xalis dəyər yenidənqiymətləndirmə dəyərinə hesablanır. Qalan bütün əsas vəsaitlər ilkin dəyərlə amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir. İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərclər

nəzərdə tutulur.Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Cəmiyyətə keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan bütün cari təmir və istismar xərcləri o dövrün mənfəət və zərərlər haqqında hesabatında əks etdirilir ki, həmin dövürdə bu xərclər çəkilmişdir.
Torpaq və binaların yenidənqiymətləndirilməsi üzrə balans dəyərinin artamsı kapitalın tərkibində sair ehtiyatlar hesabına aid edilir. Balans dəyərinin həmin aktiv üzrə əvvəlki yenidənqiymətləndirmə artımı həddləri daxilində azalması birbaşa kapitalın tərkibində ədalətli dəyər üzrə ehtiyatlar hesabına aid edilir, balans dəyərinin qalan bütün azalmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.
Hər il aktivin yenidənqiymətləndirilmiş balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları və aktivion ilkin balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları arasındakı fərq, ədalətli dəyər üzrə ehtiyat hesabından bölüşdürülməmiş mənfəət hesabına keçrilir.

### 1.4. Amortizasiya

Torpaq üzrə amortizasiya ayırmaları hesablanmır. Digər əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metoduna, yəni əsas vəsaitlərin faydalı istisması müddəti ərzində binalar illik 7 faiz, maşın avadanlıqlar illik 20 faiz, İT avadanlıqları illik 25%, Nəqliyyat vasitələri illik 25 faiz, mebel və təsərrüfat inventarları illik 20 faiz və sair əsas vəsaitlər illik 20 faiz dərəcələri tətbiq etməklə, aktivlərin qalıq dəyərinə və ya yenidənqiymətləndirilmiş dəyərinə vurmaqla həyata keçrilir.
Əsas vəsaitlər xaricolunmasından mənfəət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir.Xaric olmalardan mənfəət və zərərlər mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

**Əsas vəsaitlər və amortizasiyası**

| | Binalar, Qurgular | Maşın və avadanlıq | Nəqliyyat vasitələri | Digər | Cəmi |
|---|---|---|---|---|---|
| 31.12.2020-ci il tarixə balans dəyəri | 9,949,138.01 | 881,154.99 | 971,000 | 9,740,000 | 21,541,293 |
| Daxil olmalar | 12,950,753.99 | 10,943,215.67 | 858,065.44 | | 24,752,035.10 |
| Xaric olmalar | | | 47,500 | | 47,500 |
| Amortizasiya ayırmaları | 52,000 | 419,397.96 | 335,084.54 | | 806,482.5 |
| 31.12.2021-ci il tarixə balans dəyəri | 22,847,892 | 11,404,972.70 | 1,446,480.9 | 9,740,000 | 45,439,345.60 |

### a. Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər müəyyən faydalı xidmət müddətinə malik olmaqla əsasən proqram təminatı, lisenziyalar, hüquqlar və digər qeyri-maddi aktivlərdir.
Əldə edilmiş qeyri-maddi aktivlər onların alınmasına və tətbiq edilməsi üçün çəkilmiş xərclər əsasında kapitallaşdırılmalıdır. Kapitallaşdırlmış xərclərə QMA təqdim edən şirkətlərə sərf edilən xərclər daxildir. QMA ilə əlaqədar çəkilən digər xərclər çəkildiyi zaman xərcə silinir və faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya olunur.
2021-ci il ərzində **müəssisənin balansında fəaliyyəti ərzində istiqrazı olub**.

### b. Aktivlərin qiymətdən düşməsi

Faydalı istismar müddəti müəyyən edilə bilinməyən aktivlər amortizasiya olunmur və hər il qiymətdən düşmə məqsədləri üçün testləşdirmə aparılır. Amortizasiya olunan aktivlər, əgər hər hansı bir hadisə və ya şərait dəyişməsi balans dəyərinin bu aktivlərin əvəzinin ödənilmə dəyəri olmamasının göstərirsə, hər dəfə qiymətdən düşmə məqsədləri üçün qiymətləndirilir. Qiymətdən düşmə zərəri activin balans dəyərinin onun əvəzinin ödənilmə dəyərindən artıq olan məbləğindən tanınır. Əvəzinin ödənilməsi dəyəri aktivin satışı üzrə xərclər çıxılmaqla ədalətli dəyəri və istifadə edilmə dəyəri meyarlarından daha böyük olan məbləğlərdən biridir. Aktivlərin qiymətdən düşməsi məqsədləri üçün aktivlər pul axınlarını eyniləşdirən qruplaşdırma qaydasında ən kiçik qruplara bölünürlər.

### c. İnvestisiyalar

Rəhbərlik investisiyaları təsnifləşdirilməsinionların ilkin tanınması zamanı müəyyən edir və hər bir hesabat tarixinə onları yenidən nəzərdən keçirir. Təsnifləşdirmə investisiyaları hansı məqsədlə alınmasından asılıdır. Cəmiyyət özünün investisiyalarını ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri, borc vəsaitləri və debitor borcları, investisiyalr və satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri şəklində təsnifləşdirilir.
Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri ticarət üçün nəzərdə tutulmuş maliyyə aktivləri və ilkin tanınma ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləridir.Maliyyə aktivləri bu kateqoriyaya o zaman aid edilir ki, onlar yaxın gələcəkdə satış üçün nəzərdə tutulmuşdur və rəhbərlik tərəfindən belə ifadə edilmişdir. Törəmə maliyyə alətləri də həmçinin satış üçün nəzərdə tutulmuş hesab edilirlər. Əgər bu aktivlər satış üçün nəzərdə tutulmuşlarsa və ya onların satılması balans hesabatı tarixindən bir ildən artıq olmayan müddətdə nəzərdə tutulmuşdursa, bu kateqoriyanın aktivləri qısamüddətli aktivlər kimi təsnifləşdirilirlər.

Borc vəsaitləri və debitor borcları təsbit edilmiş və ya müəyyən edilə bilən ödəmə müddəti olan və bazarda qiyməti təyin edilməyən qeyri-törəmə maliyyə aktivləridir. Cəmiyyətin debitor borclarının satılması niyyəti olmadan pul vəsaitlərini, malları və xidməti birbaşa debitora təqdim edir. Belə borc vəsaitlərinin və debitor borcları dövriyyə aktivləri təsnifləşdirilirlər və qısamüddətli aktivlərə aid edilirlər. Borc vəsaitləri və debitor borcları mühasibat balansında debitor borclar maddəsinin tərkibində əks etdirilmişlər.
Ödəmə müddətinə qədər saxlanılmış investisiyalar təsbit edilmiş ödəmə müddəti olan qeyri-törəmə maliyyə aktivləridir ki, onlarla münasibətdə ödəniş müddətinin çatmasına qədər Cəmiyyətin onları saxlamağa qəti niyyəti və imkanı vardır.
Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri nəzərdə tutulmamış və ya katiqoryalarda təsnifləşdirilməmiş qeyri- törəmə maliyyə alətləridir. Əgər rəhbərliyin bu aktın mühasibat balansında tərtib edilmə tarixindən bir ilədək müddətə satmaq niyyəti yoxdursa, onlar həmin dövriyyə aktivlərinə aid edilirlər və uzunmüddətli aktivlərin tərkibində əks etdirilirlər.

| | 31.12.2020 | 31.12.2021 |
|---|---|---|
| İstiqrazlar | 0 | 5.000.000 |

**a. Ehtiyatlar**

Ehtiyatlar faktiki maya dəyəri ilə əks etdirilir. Maya dəyərinə material xərcləri, istehsal işçilərinin haqqı xərcləri, sair birbaşa xərclər, həmçinin inzibati xərclərin müvafiq hissəsi daxil edilir. Ehtiyatların dəyərinə, bu xammal və material ehtiyatlarının əldə edilməsi ilə bağlı olan və müvafiq pul axının hedcinqləşdirilməsi alətləri üzrə mənfəət və zərərlər hesabından keçrilmiş zərərlər daxil edilir.

| | 31.12.2020 | 31.12.2021 |
|---|---|---|
| Material ehtiyatları | 22,996,589.46 | 19,250,872.22 |
| Diger ehtiyatlar | 81,856.54 | 76,753.58 |
| **Cəmi :** | | |

**b. Alıcılar və sifarişçilərin debitor borcları**

Alıcı və sifarişçilərlə hesablaşmalar ilkin olaraq ədaləti dəyər üzrə əks etdirilir. Sonradan isə qiymətdən düşmə ehtiyatlarının yaradılması metodu ilə amortizasiya olunmuş dəyər ilə uçota alınır. Alıcılar və sifarişçilərin debitor borcları üzrə qiymətdən düşmə ehtiyatları o halda yaradılır ki, obyektiv sübutlar mövcuddur ki, Cəmiyyət tərəfindən ilkin maliyyələşmə nəticəsində yaranmış debitor borcların yığılması mümkün deyildir və ya bütün debitor borclarının ödənilməsi mümkünsüz edir. Ehtiyatların məbləği aktivin balans dəyəri ilə pul vəsaitləri axınının effektiv faiz dərəcəsi alınan fərz edilən diskontlaşdırılmış dəyəri arasındakı fərqdir. Ehtiaytalrın yaradılması və dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

| | |
|---|---|
| **Qısamüddətli debitor borclar** | |
| Müştərilərlə hesablaşmalar üzrə debitor borcları | 41,118,720.50 |
| Vergi və digər məcburi ödənişlər üzrə debitor borclar | |
| Sair qısamüddətli debitor borclar | |
| **Cəmi :** | |

**1.3. Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nəğd pul məbləğinə çevrilə bilən və dəyəri dəyişikliklərə məruz qalan maddələdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada nəğd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan yüksəklikvidli investisiyalar əks etdirilir. Mühasibat balansında bank overdraftlarıqısamüddətli öhdəliklər tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsi üzrə əks etdirilir.

| | 31.12.2020 | 31.12.2021 |
|---|---|---|
| Kassada olan Nəğd pul vəsaitləri | 5,986,794.29 | 630,113.67 |
| Bank Hesablarıda olan pul vəsaitləri | 752,885.84 | 242,285.98 |
| ƏDV deposit hesabı | 58,770.87 | 15,972.84 |
| Cəmi : | 6,798,451 | 888,372.49 |
| Bank Hesablarıda olan pul vəsaitlərindən: | | |
| • Milli valyutada bank hesabları | 569,877.17 | 241,642.53 |
| • Xarici valyutalarda bank hesabları | 183,008.67 | 643.45 |

**1.4. Nizamnamə Kapitalı**

Elan olunmuş və ödənilmiş Nizamnamə kapitalı səhmdar kapital olaraq əks etdirilir. Nizamanamə kapitalının artırılması ilə əlaqədar olan xərclər kapitalın tərkibində əks etdirilir.

| | Payların sayı | Payın dəyər (manat) | Cəmi səhmdar kapitalı (manat) |
|---|---|---|---|
| 31.12.2020-ci il tarixə | 2 | 1,442,455 | 2,884,910 |
| 31.12.2021-ci il tarixə | 2 | 5,742,680 | 11,485,360 |

**1.5. Kreditlər və borclar**

Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır. Konvertasiya olunan istiqrazlara ekvivalent bazar faiz dərəcəsi tətbiq edilməklə müəyyən olunur.Kreditlər və borclar, Cəmiyyət tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansında tərtib edilmə meddətindən ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsizhüququn olması halları istisina olmaqla, qısamüddətli öhdəliklər kimi təsnifləşdirilir.

**1.6. Qarşıdakı xərclər və ödənişlər üzrə ehtiyatlar**

Ətraf mühitin bərpa olunmasına, məhkəmə çəkişmələrinə ehtiyatlar o zaman yaradılır ki:

- Cəmiyyətin keçmiş dövrlərində baş vermis hadisələr nəticəsində hər hansı hüquqi öhdəliklər daşıyır və ya könüllü surətdə öz üzərinə ənənəvi öhdəliklər qəbul etmişdir;
- Ehtimallar vardır ki, bu öhdəliklər səhmana salınması üçün pul vəsaitlərinin axını labüddür;
- Bu öhdəliklərin məbləği etibarlı surətdə hesablan bilir.

**1.7. Mənfəət vergisi**

Mənfəət vergisi hazırki maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasımn qüvvədəolan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirəsalınmışmənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakin, həmin və ya başqadövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapitalhesablarında qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi uzrə ehtiyat öhdəliklər metodu istifdə edilməklə tam həcmdəyaradılır. Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan butun zaman fərqləri üzrəmüəyyən edilir. Lakin, təxirə salınmış mənfəət vergisi, aktivlərin və ya öhdəliklərin ilkin tanınmasızamanı meydana çıxırsa, o halda təxirə salınmış mənfəət vergisi uçotda əks etdirilmir. Təxirə salınmış mənfəət vergisi mühasibatbalansının tərtib edilmə tarixinə qüvvədə olan Azərbaycan Respunlikasının Vergi Məcəlləsindəmüəyyən edilmiş vergi dərəcələrinə müvafiq olaraq hesablanır.

**1.8. Gəlirin tanınması**

Gəlir satılmış mal, iş və xidmətlərin ədalətli dəyəri ilə (əlavə dəyər vergisi çıxılmaqla) tanınır. Satışdan gəlir aşağıdakı qaydada tanınır:

(a) Xidmətlərin göstərilməsindən gəlirlər

Xidmətlərin göstərilməsindən gəlirlər o hesabat dövrünə aid edilir ki, bu xidmətlər göstərilmişdir və xidmət göstərilməsi üzrə konkret sövdələşmənin tələbləri başa çatdırılmışdır. Konkret sövdələşmənin tələblərinin başa çatdırılması dərəcəsi faktiki göstərilmiş xidmətlərin həcminin sövdələşmə üzrə göstəriləcək xidmətlərin ümumi həcmindəki payı kimi qiyınətləndirilir.

(b) Faiz gəlirləri

Faiz gəlirləri faktiki əldə edildiyi dövrdə gəlir kimi tanınır.

(c) Dividend gəlirləri

Dividend gəlirləri o zaman tanınır ki, səhmdarların mənfəət əldə etmək hüququ müəyyən olunmuşdur.

**1.9. İcarə**

Mülkiyyət hüququndan irəli gələn risklərin və səmərələrin əhəmiyyətli hissəsinin icarəyə verəndə qalması hallarındakı icarə, əməliyyat icarəsi kimi təsnifləşdirilir. Əməliyyat icarəsi müqaviləsi üzrəödənişlər bütün icarə müddəti üzrə bərabər hissələrə bölünməklə, ınənfəət və zərərlər haqqındahesabatda əks etdirilir.

**1.10. Dividendlərin verilməsi**

Cəmiyyətin səhmdarlarına dividendlər maliyyə hesabatlarında öhdəlik kiıni o dövrdə tanınır ki, həmindövrdə Cəmiyyətinin səhmdarları tərəfindən təsdiq edilmişdir.

Hesabat dövründə Cəmiyyətin təsisçilərinə dividendlər elan edilməmiş və ödənilməmişdir.

**2.Maliyyə risklərinin idarə edilməsi**

Cəmiyyətin fəaliyyəti bir sıra maliyyə risklərinə meyillidir: bazar riski (valyuta riskləri, faiz dərəcələrinin dəyişməsinin ədalətli dəyərə təsir riski və qiymət riski daxil olmaqla); kredit riski; likvidlik riski və faiz dərəcələrinin dəyişməsinin pul vəsaitləri axınına təsiri riski. Cəmiyyətin risklərin idarə olunması üzrə proqramı, maliyyə risklərinin qabaqcadan müəyyən edilə bilinməməsi amilinə cəmləşdirilmişdir (fokusuna

yığılmışdır) və Cəmiyyətin fəaliyyətinin maliyyə nəticələrinə potensial əlverişsiz təsirinin minimallaşdırılmasına yönəldilmişdir.

(a) Bazar riski

(i) Valyuta riski

Cəmiyyət beynəlxalq iqtisadi əlaqələrə malikdir və ona görə də, xarici valyuta kurslarımn (əsasən, ABŞ dolları, avro, Rus rublu və s.) dəyişməsindən valyuta risklərinə meyillidir

(ii) Qiymət riski

Cəmiyyətin gostərdiyi xidmətlər uzrə qiymət riskinə mübtəla deyildir. Analoji xidmətlər bazarında faktiki rəqabətin olmaması buna əsas verir.

(b) Kreditriski

Cəmiyyətin əhəmiyyətli kredit risklərinə mübtəla deyildir. Törəmə alətlərlə sövdələşmələr və pul əməliyyatları yalmz yüksək ödəmə qabiliyyəti olan maliyyə institutları ilə aparılır. Cəmiyyət tərəfindən heç bir istisnaya yol vermədən bütün maliyyə institutları üçün kredit riskini məhdudlaşdıran prosedurlar işlənmişdir.

(c) Likvidlik riski

Likvidlik riskinin ehtiyatkarlıqla idarə edilməsi pul vəsaitləri və dövriyyədə olan qiymətli kağızların kifayət həcminin saxlanmasım, açılmış kredit xəttləri vasitəsilə adekvat maliyyələşmə imkanlarım və ortaya cıxa biləcək disbalans hallarında operativ idarərtmə imkanlarım nəzərdə tutur.

(d) Faiz dərəcəsinin dəyişməsinin pul vəsaitləri axınına və ədalətli dəyərə təsiri riski Cəmiyyətin faiz gəliri gətirən əhəmiyyətli məbləğdə aktivlərə malik olduğundan, ınənfəət və pul vəsaitlərinin əməliyyat axınları, əsasən bazar faiz dərəcələrinin dəyişməsindən asılıdır.

**3.Törəmə maliyyə alətləri və hedcinq əməliyyatlrı**

Torəmə maliyyə alətləri muvafıq sovdələşmələrin (kontraktların) bağlanma tarixinə ilkin balans dəyəri ilə ucota alımr: sonradan ədalətli dəyərə yenidən qiymətləndirmə tələb edilir. Bu qaydada muəyyən edilmiş gəlirlər və zərərlər maliyyə alətərinin təsnifləşdirilməsindən asılıdır.

**4.Uçot Siyasətinin tətbiqi zamanı əhəmiyyətli mühasibat təxminləri və fərziyyələr.**

Cəmiyyət növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və fərziyələr irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan amillər aşağıdakılar daxildir.

**4.1.Müştəri debitor borclarının dəyərsizləşməsi üzrə zərərlər**

Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçrilir.

**4.2. Binaların yenidən qiymətləndirilməsi**

Hər bir balans tarixində Cəmiyyətin binalarının ədalətli dəyərinin balans hesabatında əks etdirilməsi məqsədilə, rəhbərlik binaların yenidən qiymətləndirilməsi üzrə əsas əldə etmək məqsədilə müstəqil qiymətləndirmə hesabatının tələb olunduğunu müəyyən etmək üçün peşəkar mülahizələr irəli sürür.

**5.Vergi, Sosial sığorta və əmək qanunvericiliyi**

Cəmiyyət vergilər, sosial sığorta və əmək münasibətləri üzrə əməliyyatların müvafiq olaraq AR-nən Vergi Məcəlləsi, Əmək Məcəlləsi, Sosial sığorta haqqında Qanun və digər əlaqədar normativ sənədlərin tələblərinə uyğun aparır.

**6. Kapital ehtiyatları**

| | **Əlavə kapital** | **Qanunvericilik üzrə ehtiyatlar** | **Digər ehtiyatlat** | **Cəmi kapital ehtiyatları** |
|---|---|---|---|---|
| 31.12.2020-ci il tarixinə | | | | |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | |
| Kapital maddələri arasında köçürmələr | | | | |
| Təsisçinin kapital qoyuluşu | | 2,884,910 | | |
| 31.12.2021-ci il tarixinə | | | | |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | |
| Kapital maddələri arasında köçürmələr | | | | |
| Təsisçinin kapital qoyuluşu | | | | |
| 31.12.2021-ci il tarixinə | | 11,485,360 | | |

| | 2020 | 2021 |
|---|---|---|
| **7. Sair qısamüddətli aktivlər** | | |
| Əvəzləşdiriləcək ƏDV | | |
| Gələcək hesabat dövrünün xərcləri | | |
| Törəmə müəssisələrdən avans | 1,130,513 | 6,606,023.29 |
| **Cəmi :** | | |
| **8. Vergi və digər məcburi ödənişlər öhdəliklər** | | |
| Vergilər üzrə öhdəliklər | 418,745 | |
| Sosail sığorta üzrə öhdəliklər | | |
| **Cəmi :** | | |
| **9. Qısamüddətli kreditor borcları** | | |
| Malgöndərən və podratçılara qısamüddətli kreditor borcları | 15,593,616 | 13,737,892 |
| Törəmə (aslı) müəssisələrə kreditor borcları | | 1,855,724 |
| İşçiheyətinə qısamüddətlikreditorborcları | | |
| Digər qısamüddətli kreditor borcları | | |
| **Cəmi :** | | |
| **10. Sair qısamüddətli öhdəliklər** | | |
| Alınmış qısamüddətli avanslar | 14,095,442 | 6,420,854 |
| Təsisçilərə qısamüddətli kreditor borcları | | |
| Gələcək hesabat dövrünün gəlirləri | | |
| **Cəmi :** | | |
| **11. Gəlirlər** | | |
| Əsas əməliyyat gəlirləri | 106,583,259 | 113,430,925 |
| İcarədən gəlirlər | | 560,106.96 |
| Digər gəlirlər | 1,976,776 | 2,472,854.28 |
| **Cəmi** | **113,410,972.03** | **116,463,885** |

| **12. Əməliyyat xərcləri** | **2021** |
|---|---|
| Satışın maya dəyəri | 82,798,987 |
| Digər xərclər | 32,092,680 |
| Cəmi | 114,891,667 |

**13 Mənfəət vergisi**

BMHS və Azərbaycan Respublikasının vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması çərçivəsində aktiv və passivlərin balans dəyəri arasında müvəqqəti zaman fərqləri əmələ gəlir.

**14 Hesabat tarixindən sonra baş vermis hadisələr.**

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir edə biləcək hadisələr baş verməmişdir.